Nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert komissiyasmm iclasının

55 №-Lİ PROTOKOLU

İclasın gündəliyi:

1 .Dövlət reyestrinə daxil edilmiş nəzarət-kassa aparatlarının və taksometrlərin vergi orqanlarında qeydiyyatı haqqında.

Qərara alındı:

1. "CASPEL" MMC-nin sifarişi ilə Dövlət reyestrinə daxil edilmiş "4613-XXX tipli İBM POS terminalı", "Mini-T 400ME", "Mini-T51.11" və "Mini-T61.11", "Skaner" EİF-in sifarişi ilə daxil edilmiş "NCR", "Billur Elm İstehsalat" MMC-nin sifarişi ilə daxil edilmiş "Merkuri-130F-01", "Lider" MMC-nin sifarişi ilə daxil edilmiş "Merkuri-112F", "Merkuri-116F", "Lider-M" MMC-nin sifarişi ilə daxil edilmiş "Merkuri-112FK", "Merkuri-PK", "Merkuri-mPOS-64", "Elektron-S.S" MMC-nin sifarişi ilə daxil edilmiş "Kasbi-02F", "Araz LTD" firmasının sifarişi ilə daxil edilmiş "Kasbi-04F", "Texno-İskra" MMC-nin sifarişi ilə daxil edilmiş "Mikro-114K", "Klassik-2" şirkətinin sifarişi ilə daxil edilmiş "Orion-100F", "Orion-101F" və "Orion-110F", "Orion Servis" MMC-nin sifarişi ilə daxil edilmiş "Orion-110K", "Orion-200K" və "ACLAS" markalı nəzarət-kassa aparatlarının və "Cihazqayıranlar" cəmiyyətinin sifarişi ilə daxil edilmiş "Stayer-01F" markalı taksometrin qeydiyyatı 2015-ci ilin 31 dekabr tarixinədək artırılsın.

2. "BEKO-IO8SR", "Sileks-7004", "Bakı-İnter ECR-019", "AMS-100F", "Kasbi-03F", "Ladoqa-F", "Astra-100F" markalı nəzarət-kassa aparatları 01.07.2015-ci il tarixdən, "Merkuri-180F", "Merkuri-111-01MF", "Astra-200F",

"Bakı-İnter-010", "Bİ-007P", "Beko-CEN-398SR" markalı nəzarət-kassa aparatları 01.01.2016-cı il tarixdən Dövlət reyestrindən çıxarılsın.

3. "Merkuri-115F-01", "Minika-1102F", "Minika-1103F", "EKR-2102F", "EKR-, 3102F", "Ştrix-Mini-F" və "Merkuri-141K" nəzarət-kassa aparatlarının vergi orqanlarında qeydiyyatı 01.01.2015-ci il tarixdən dayandırılsın.

4. Nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert komissiyasının 22.02.2011-ci il tarixli 44 nömrəli protokolu ilə vergi orqanlarmda qeydiyyatı 22.02.2011-ci il tarixdən dayandırılmış "Mikro-105K" markalı aparatın qeydiyyatının bərpa edilməsi barədə "Texno-İskra" MMC 16.10.2014-cü il tarixli və 02.12.2014-cü il tarixli 104 nömrəli müraciətləri təmin edilməsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 18 iyul tarixli 168 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert Komissiyası haqqında "Əsasnamə"nin 5.1.3-cü bəndinə əsasən dövlət vergi orqanlarına, nəzarət-kassa aparatlarının istehlakçılarına, sifarişçilərinə və servis texniki xidmət mərkəzlərinə tapşırılsın ki, bu protokolun tələblərindən irəli gələn məsələlərin vaxtında və keyfıyyətlə icrasını təmin etsinlər.